CESD
Center For Economic and Social Development

Konrad Adenauer Stiftung

# AZƏRBAYCANDA KORPORATİV SOSİAL MƏSULİYYƏTİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ




Juli 2013

## Mündəricat

Xülasə ....................................................................................................................2
Korporativ Sosial Məsuliyyətlə Bağlı Cari Aktivliklər ..............................................3
Korporativ Sosial Məsuliyyətlə Bağlı Cari Problemlər..............................................4
Cari Problemlərin Həlli İstiqamətində Atılan Addımlar ............................................5
Nəticə və Təkliflər .....................................................................................................6

## Xülasə

*İqtisadi və Sosial İnkişaf Mərkəzi tərəfindən korporativ sosial fəaliyyətlə bağlı aparılan araşdırma Azərbaycanda  bu sahədə mövcud vəziyyətin dəyərləndirilməsini aparmışdır. Nəticəyə əsasən Azərbaycanda şirkətlərin sosial fəaliyyətlə bağlı səviyyəsi dünya ölkələri ilə müqayisədə kifayət qədər aşağıdır. Sovet İttifaqı tərkibində olmuş digər dövlətlər kimi Azərbaycanda da kollektiv sistemin tətbiqi, dövlətin özəl bizneslərə yaratdığı maneələr və qoyduğu qadağalar bu sahənin inkişafdan qalmasına səbəb olmuşdur.*

*Hal-hazırda da monopoliya, dövlətin şirkətlərə kəskin nəzarəti kimi faktorlar bu sahədə ürəkaçan nəticələr əldə etməyə mane olur. Ölkədə bu sahədə atılmış əsas təqdirəlayiq addım dünyada bir ilk kimi "Korporativ Sosial Məsuliyyət (KSM) - Azərbaycan"ın yaradılması olmuşdur. Bu təşkilat Azərbaycanda şirkətlərin sosial fəaliyyətinə nəzarət, onun inkişafı, şirkətlərin gördüyü işlərlə bağlı hesabat verməsinin təmin olunması kimi vəzifələri öhdəsinə götürmüşdür.Azərbaycanda şirkətlərin korporativ sosial məsuliyyətləri onların fəaliyyət istiqamətinə görə bir-birindən fərqlənir.*

*Korporativ sosial fəaliyyət həyata keçirən şirkətlər arasında mobil operator şirkətləri, banklar və neft şirkətləri üstünlük təşkil edir. Mərkəzi Bank da bu sahədə  yeniliyə açıq olduğunu bildirir və marketinq, bank sisteminin inkişafına yönəlmiş treninqlər keçirir. Bütün bu tədbirlər sayəsində cəmiyyətin bank sisteminə etibarını artırmaqdadır.*

*Araşdırmanın nəticələri göstərir ki, beynəlxalq təcrübədə şirkətlərin üstünlük verdiyi  sosial hesabat məsələsinə Azərbaycandakı şirkətlər demək olar ki, əhəmiyyət vermir. Onların yalnız az bir qismi korporativ sosial fəaliyyətlə məşğul olur və bu barədə sosial hesabat verməyi vacib sayır. Əksər şirkətlər sosial fəaliyyətlə məşğul olduğunu bildirsə də sosial hesabat verməkdən yayınır.KSM-in inkişafı yolunda meydana çıxan problemləri aradan qaldırmaq üçün dövlətin qarşısında duran prioritet məsələlər bu sahədəmaarifləndirmə işinin aparılması, stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, qanunverici bazanın yaradılmasıdır.*

**Korporativ Sosial Məsuliyyətlə Bağlı Cari Aktivliklər**

Azərbaycanda korporativ sosial məsuliyyətin cari vəziyyətini qənaətbəxş hesab etmək olmaz.Belə ki, hal-hazırda Azərbaycanda şirkətlərin sosial fəaliyyəti mövcud olan 6 fəaliyyət növündən əsasən ikisi ilə məhdudlaşır ki, bunlar da sponsorluq və ya xeyriyyəçilik tədbirlərindən ibarətdir. KSM fəaliyyəti ilə seçilən başlıca iri şirkətlərdən biri kimi dövlət neft şirkəti olan ARDNŞ bu istiqamətdə bir sıra layihələrə imza atmışdır. Şirkətin verdiyi sosial hesabataəsasən idmanın təbliği və inkişafında vacib rolu olan "Neftçi" İdman-Sağlamlıq Mərkəzi yaradılmış, humanitar tədbirlər çərçivəsində Ağdam rayonunda yerləşən məcburi köçkünlərə bayramla əlaqədar ərzaq yardımları etmişdir.

Regional tədbirlər çərçivəsində isə şirkət məktəb və bağçalarda təmir-bərpa işləri aparılmışdır. Ölkədə KSM sahəsində fəallığı ilə seçilən iri şirkətlərdən biri də "Azəri-Çıraq-Günəşli" neft və "Şahdəniz" qaz yataqlarına operatorluq edən "BP Azərbaycan"-dır. Şirkət sosial,iqtisadi,təhsilin inkişafı əlaqədar layihələr həyata keçirmiş, xeyriyyəçilik tədbirləri görmüşdür. "BP-Azərbaycan" 2010-cu ildə Layihə İdarəetmə Məktəbi yaratmışdır. Məktəbdə əsasən özəl və ictimai sektordakı şəxslərin layihə idarəetmə bacarığı inkişaf etdirilir. Bundan əlavə şirkətkimya mühəndisliyi fakültəsi üçün 2011-ci ildə Qafqaz Universitetində beş yeni laboratoriyasını açmışdır. Azərbaycanda və Türkiyə universitetlərinin neft mühəndisliyi fakültəsindəki yerli tələbələrə dəstək məqsədilə təqaüd proqramları hazırlamışdır.

Ölkədə KSM sahəsində bankların da fəallığı özünü göstərir. Belə ki, "Bank Technique"in sosial hesabatında qeyd olunur ki, bank 2013-cü ilin may ayında talassemiyalı uşaqlara qanvermə aksiyası təşkil etmiş, Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar olaraq, şahmat turniri və futbol çempionatı keçirmişdir.Eyni zamanda bank incəsənət sahəsində bacarığı olan,istedadlı gənclərə dəstək məqsədilə "İndi" layihəsini həyata keçirmişdir. "Avropada ən yaxşı KSM Proqramı" nominasiyasında mükafat almış Paşa Bankın İctimaiyyətlə əlaqələr və marketinq departamentinin məlumatına əsasən qısa müddət keçsədə bankın KSM sahəsində böyük nailiyyətlərə imza atdığını bildirib. Təhsil, idman və mədəniyyət layihələri həyata keçirilib. "Atabank" da öz fəaliyyətində korporativ sosial fəaliyyətə, idman,mədəniyyət təhsil layihələrinə xüsusi diqqət ayırır. Bank humanitar tədbirlər çərçivəsində kimsəsiz uşaqlar arasında rəsm müsabiqəsi keçirmiş, Novruz bayramı ərəfəsində uşaq evlərinə ziyarət etmiş, idmana qayğı məqsədilə Xokkey Çempionatı keçirmişdir.

Mobil operator şirkətləri arasında ilk növbədə"Bakcell" şirkətinin KSM fəaliyyətini qeyd etmək lazımdır. Belə ki, "Bakcell" şirkətinin UAFA ilə birgə əməkdaşlıq çərçivəsində 1 iyun Uşaqların Müdafiə günü ilə əlaqədar olaraq Azərbaycanın bir çox rayonlarında uşaq

evlərini ziyarət etmiş, tədbirlər keçirmişdir. Şirkət SOS uşaq kəndlərinə dəstəyini əsirgəməmişdir. "Uşaqların tolerantlıq təhsili" layihəsini hazırlamış, Azərbaycanda qadınların idman və fiziki tərbiyəsi, həmçinin onların bu sahədə fəaliyyətinin inkişafı ilə əlaqədar "İdman qadınlar üçün" layihəsinə imza atmışdır.

Digər bir mobil operatorun- “Nar Mobile” şirkətinin KSM fəaliyyətində də xeyriyyəçilik ön plandadır. 2012-ci ildə şirkət “Savab dünyası” Talassemiya Assosiasiyası ilə birgə qanvermə aksiyası keçirmişdir. “Nar Mobile”-ın KSM siyasətində təhsilə və gənclərə yönəlmiş layihələr üstünlük təşkil edir. Belə ki, karyera həftəsi çərçivəsində şirkət Azərbaycan Diplomatik Akademiyasında gənclərlə görüşmüş,onları şirkətin fəaliyyəti və orada karyera imkanları barədə məlumatlandırmışdır.

Ümumiyyətlə götürdükdə, göründüyü kimi Azərbaycanda reallaşdırılan korporativ sosial məsuliyyət layihələri daha çox neft şirkətləri və banklar tərəfindən reallaşdırılır. Bu siyahıya mobil operatorların da daxil olunması məqsədəuyğundur.

## Korporativ Sosial Məsuliyyətlə Bağlı Cari Problemlər

Araşdırmamızın üzə çıxardığına görə Azərbaycanda korporativ sosial məsuliyyətlə əlaqədar vəziyyətin qənaətbəxş olmamasına bir neçə faktorlar maneçilik törədir. Belə ki, KSM-in inkişafı üçün hal-hazırda mövcud problemlər aşağıdakılardır:
İlk öncə ölkədə şirkətlərin KSM fəaliyyətini nizama salacaq qanunverici bazanın yoxluğunu vurğulamaq yerinə düşər. Qanunvericilik bazası KSM fəaliyyətinə stimulverici səbəb olmaqdan da əlavə təşkilatların belə fəaliyyətlərə xüsusi qayğı ilə yanaşmasına zəmin yaradır. Bu sahədə qanunun olmaması nəticəsində şirkətlər sosial məsuliyyətə ciddi yanaşmır, vacib hesab etmədiyi üçün onu öz işində tətbiq etmir.

Qanunvericilik bazasının olmaması KSM-in inkişafına nə qədər pis təsir eləsə də, sahibkarların da kifayət qədər məlumatının olmaması bu sahənin inkişafında öz sözünü deyir. Belə ki, onlara əsasən işin maliyyə tərəfi, və bizneslərini genişləndirmək maraqlıdır. Lakin bu zaman onlar unudurlar ki, daha hazırlıqlı və dünyagörünüşlü insanların onların təşkilatına qoşulması onlara çox kömək edə bilər. Lakin təəssüflər olsun ki, onların KSM anlayışı ilə bağlı təsəvvürləri isə sadəcə xeyriyyəçilik və sponsorluq fəaliyyətindən ibarətdir. Onların bu fəaliyyətləri isə daha çox reklam xarakterlidir.

KSM üzrə yerli kadrların olmaması da sahənin inkişafına maneçilik törədir. Ölkədə təhsil müəssisələrində KSM-lə bağlı tədris verilmir, mütəxəssislər yetişdirilmir. Lakin bu mütəxəssis yetişdirilməsi üçün mövcud olan yeganə problem deyil. Azərbaycan dilində

informativ materiallar və kitablarınolmamasıda məsələnin digər tərəfidir. Bu problemi qızışdıran məqamlardan biri də KSM fəaliyyəti ilə məşğul olan şirkətlərin bir-biri ilə təcrübə mübadiləsi kimi fəaliyyətlərə qoşulmamasıdır. Bütün bunlar nəinki KSM-in inkişafına yardım etmir, hətta ona maneçilik törədir.

## Cari Problemlərin Həlli İstiqamətində Atılan Addımlar

KSM-in inkişafına nail olmaq üçün cari problemlərin həlli istiqamətində bir sıra addımlar atılır. ASR Konsaltinq və Araşdırma Qrupu tərəfindən şirkətin resurslarını nəzərə almaqla KSM-in geniş və səmərəli tətbiqi, sosial fəaliyyət strategiyasının formalaşdırılması, sosial hesabatın verilməsi, bu sahədə mütəxəssislərin yetişdirilməsi məqsədiləkonsaltinq xidmətləri təklif olunmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası bu sahədə hüquqi bazanın formalaşmasını, bizneslə Vətəndaş Cəmiyyəti Təşkilatları arasında əməkdaşlığın yaradılmasını qarşısına məqsəd qoymuşdur. 2011-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən KSM haqqında qanun layihəsinin hazırlanmasınada cəhd göstərilmişdir. Bu qanun biznes, hökumət və QHT-lərin birgə əməkdaşlığını təmin etməyə yönəlmişdi. Qanun layihəsi müzakirəyə çıxarılsa da Milli Məclis onun qəbul olunmasına ehtiyac görməyib. Milli Məclisin rəyinə əsasən dünya təcrübəsində də bu sahədə qanun anlayışı mövcud deyil. Qanun layihəsinin xartiya kimi qəbul olunması və bu barədə digər mexanizmlərin yaradılması daha məqsədəuyğun sayılıb. QHT-lərə Dövlət Dəstək Şurası xartiyanın qəbulu ilə bağlı növbəti mərhələlərin nələrdən ibarət olacağı barədə hələ ki məlumat verməmişdir.

KSM-in inkişafı üçün normativ hüquqi bazanın yaradılması istiqamətində həmçinin İqtisadi İnkişaf Nazirliyi və Beynəlxalq Maliyyə Korporasiyasının əməkdaşlığı ilə təşkil olunmuş tədbirdə dünyanın qabaqcıl şirkətlərinin təcrübəsindən yaranmaqla Azərbaycan şirkətləri üçün Korporativ Etika Məcəlləsi hazırlanıb. Məcəllə özündə şirkətlərin əməkdaşlarına hörmətlə davranmalı olduğunu, təkcə əməkdaşlıq etdiyi şirkətlər qarşısında deyil, bütünlükdə cəmiyyət qarşısındakı olan öhdəliklərini əks etdirir. Məcəllədə göstərilənlərə riayət etmək şirkətlər üçün vacibdir. Əks təqdirdə isə onlar şərtlərə niyə əməl etmədiklərini izah etməyə borcludurlar. Bütün bu layihələrin həyata keçirilməsi zamanı əsas amillərdən biri hesabatlılıq prinsipinə əməl olunmasıdır. Məcəllənin qanunverici aktlardan üstünlüyü ondadır ki, ona davamlı olaraq ona əlavə və dəyişikliklərin edilməsi mümkündür. Lakin hələ də məcəllənin təqdimatı olmayıb. Hüquqi bazanın inkişafı üçün İqtisadi İnkişaf Nazirliyi tərəfindən Korporativ İdarəetmə standartları da hazırlanıb.

2012-ci ildə KSM üzrə mövcud problemlərin aradan qaldırılması istiqamətində ilk sosial şirkətin-“KSM Azərbaycan”ın yaradılması mühüm addım oldu. KSM barədə təbliğatın aparılması, peşəkar KSM xidmətlərin təklif olunması və davamlı inkişafa nail olunması bu şirkətin əsas prinsiplərini təşkil edir. Şirkət bu günə qədər müxtəlif sosial problemlərin aradan qaldırılması üçün bir çox layihələr keçirmişdir ki, bunlara da siqaret çəkilməsinə qarşı kampaniya, gənclərin yaradıcılıq fəaliyyətini üzə çıxarmaq üçün “KreAktiv” layihəsini, şirkətlərarası futbol turunun keçirilməsini aid etmək olar. Şirkətin təsis olunması KSM üzrə problemlərin gələcəkdə aradan qaldırılmasına ümid yaradır.

## Nəticə və Təkliflər

Ümumilikdə hal-hazırda Azərbaycanda korporativ məsuliyyət yetərincə inkişaf etməyib. Bu sahədə transmilli korporasiyalarin fəaliyyəti üstünlük təşkil edir. İri beynəlxalq şirkətlər tərəfindən xüsusilə ətraf mühitin mühafizəsi ilə bağlı əhəmiyyətli sosial layihələr həyata keçirilib. Sosial obyektlər tikilib istifadəyə verilib, ehtiyatda olan torpaqlar təmizlənib, yaşıllıqlar salınıb, həmçinin təhsilə də diqqət ayrılıb. Maraqlıdır ki, ekspertlərin gəldiyi nəticəyə əsasən, transmilli korporasiyalardan fərqli olaraq yerli şirkətlərin sosial fəaliyyət olaraq göstərdiyi xeyriyyəçilik tədbirləri KSM fəaliyyətinə aid edilə bilməz. Şirkətin KSM fəaliyyəti üçün strategiyaya sahib olması və hər hansı bir layihəyə məqsədyönlü şəkildə sərmayə qoyması lazımdır.

KSM-lə bağlı vəziyyətin qənaət bəxş olmamasına səbəb monopoliyanın mövcudluğu və özəl sektorunun inkişafdan qalmasını qeyd etmək olar.2012-ci ildə KSM üzrə ilk sosial şirkətin-“KSM Azərbaycan”ın yaradılması da bu problemlərin aradan qaldırılmasındamühüm addım oldu. KSM barədə təbliğatın aparılması, peşəkar KSM xidmətlərin təklif olunması və davamlı inkişafa nail olunması bu şirkətin əsas prinsiplərini təşkil edir.

KSM-in inkişafı üçün digər problem normativ hüquqi bazanın olmamasıdır. Bu problemin aradan qaldırılması üçün İqtisadi İnkişaf Nazirliyi və Beynəlxalq Maliyyə Korporasiyasıtərəfindən Korporativ Etika Məcəlləsi hazırlanıb. Məcəllə özündə şirkətlərin əməkdaşlarına hörmətlə davranmalı olduğunu, təkcə əməkdaşlıq etdiyi şirkətlər qarşısında deyil, bütünlükdə cəmiyyət qarşısındakı olan öhdəliklərini məsuliyyətini vurğulayır. Məcəllədəşirkətlərin öz fəaliyyətlərini həyata keçirilməsi zamanı əsas amillərdən birinincəmiyyət qarşısında hesabatlılıq prinsipinə olunması vurğulanır.Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərəDövlət Dəstəyi Şurasının fəaliyyəti nəticəsində də KSM üzrə hüquqi boşluğun aradan qaldırılması üçün Milli Məclisə təqdim olunan lakin qəbul olunmayan qanun layihəsi də əhəmiyyətli rol oynayır. Layihə qəbul olunmasa da, KSM-lə bağlı hüquqi boşluğu üzə çıxara bildi.

Bütün bunları nəzərə alaraq ölkədə KSM-in inkişafı üçün aşağıdakılar təklif edilir:

1. Stimulverici tədbirlərin planlaşdırılması və həyata keçirilməsi, vergi güzəştlərinin tətbiq olunması, vergi kreditləri və vergi tətillərinin təyin olunması;

2. Maarifləndirmə işininaparılması;

3. Dövlət və özəl sektor şirkətlərinbeynəlxalq çağırışlara qoşulması;

4. Sosial məsuliyyət məcəlləsinin təşviq olunması, korporativ idarəetmə standartlarınınişlənilməsi,şirkətlərin sosial hesabatlılıqlarınınartırılmasına təşviq olunması;
5. Hökumət və yerli özünüidarəetmə orqanlarının KSM sahəsində illik prioritetlərini müəyyənləşdirib, elan etməsi;

6. Xarici transmilli korporasiyalar və yerli şirkətlərinKSM siyasətini həyata keçirərkən daha çox yerli vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa üstünlük verməsi;

7. KSM mədəniyyətinin zəifliyinin aradan qaldırılması üçün Azərbaycan dilində ədəbiyyatın çap olunması, iqtisadi fakültələrdə KSM fənninin tədris olunması.

KONRAD-ADENAUER-STIFTUNG

Regional Program Political
Dialogue South Caucasus

Tel. +994 12 465 99 73
Fax +994 12 465 99 74

E-Mail: info.georgien@kas.de

Verbindungsbüro Baku
The Landmark Building III
Nizami Str. 90A
Republik Aserbaidschan

http://www.kas.de/suedkaukasus/